BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Humanitar elmlər seriyası 2008

# CƏNUBİ QAFQAZ QUBERNİYALARI ÜZRƏ BƏY KOMİSSİYALARININ TƏŞKİLİ VƏ 1870-ci İL 14 MAY KƏNDLİ İSLAHATINA HAZIRLIQ İŞİNDƏ ONLARIN ROLU

F.E.BAXŞƏLİYEV
*Bakı Dövlət Universiteti*

1870-ci il 14 may Kəndli islahatının həyata keçirilməsi çarizmin Cənubi Qafqazda, o cümlədən, Şimali Azərbaycanda yeritdiyi aqrar müstəmləkə siyasətində 1846-cı ildən başlamış yeni dönüş dövrünün başa çatması demək idi. 1846-cı il 6 dekabr Çar fərmanı Rusiyanın regiondakı aqrar siyasətinin əsas məzmununu müəyyən edərək əksər sahələrdə sabitlik yaratdı. Lakin bu sabitlik və yeridilən siyasət əsasən bəy və ağalara münasibətdə hökumətin əvvəlki etimadsızlıq siyasətini aradan qaldıraraq, ali müsəlman silkinin simasında özünə etibarlı sosial dayaq yaratmaq və müttəfiq əldə etmək məqsədinə xidmət edirdi. Amma eyni münasibətin Azərbaycanda əhalinin böyük əksəriyyətini təşkil edən kəndlilərə də aid olacağını söyləmək qeyri-mümkün idi. Beləliklə, müstəmləkə hakimiyyət orqanları yerli hakim zümrəyə - bəylərə və ağalara münasibətində müəyyən fasilədən sonra qəbul etdiyi bir sıra qanunvericilik sənədləri ilə (1846-cı il 6 mart; 1847-ci il 20 aprel və 28 dekabr) onların münasibətini təzələyəcək dərəcədə vəziyyətin dəyişməsinə nail ola bilmişdi. Ümumiyyətlə, çarizm öz müstəmləkə siyasətində bu yerlərdə çox əvvəllərdən mövcud olan adətləri və qaydaları dəyişməyə o qədər də meyl göstərmirdi, çünki əsrin 30-cu illərində edilmiş, hətta ilk baxışda o qədər də ciddi nəticələr törədəcəyi güman edilməyən hökumət tədbirlərinə yerli əhalinin, o cümlədən hakim zümrənin yaxından iştirakı ilə müstəmləkə rejiminə qarşı çevrilmiş 4 böyük üsyanla cavab verməsi hələ yaddan çıxmamışdı. Buna görə də, çarizm imtiyazlı təbəqəyə münasibətdə əvvəlki qaydaları aradan qaldırmaqdan çox, onları saxlamağa, hətta bir qədər də möhkəmləndirmək siyasətinə üstünlük verirdi. Çar hökuməti rəsmilərinin dövlət strukturlarının müxtəlif pillələrindəki məmurlara ünvanladığı məktub və göstərişlərdə, habelə, 40-cı illərin ikinci yarısında qəbul edilmiş qanunlarda bu mövqe hər dəfə bir daha təsdiqlənirdi.

Güman olunurdu ki, çarizm yerli hakim zümrə nümayəndələri ilə münasibətlərini sabitləşdirərək əlaqələrini istiləşdirdikdən sonra kəndlilər də yada düşəcək və onların vəziyyətinin yaxşılaşdırılması sahəsində müəyyən addımlar atılacaq. Doğrudur, bir sıra qanunvericilik sənədlərində kəndlilərin ödədiyi vergilər, biyar işlərinin müddəti və forması, hətta kəndlilərə pay torpağı verilməsi məsələlərinin həll edilməsinə cəhdlər göstərilmişdi. Lakin işdə bunlar yalnız niyyət xarakteri daşımış

və nəzərdə tutulmuş bütün işlər yalnız kağız üzərində qalmışdı. Buna görə də, 1870-ci il 14 may kəndli islahatının elan edilməsinə qədər kəndlilərin, xüsusilə sahibkar kəndlilərin, vəziyyətinin yaxşılaşdırılması, hüquqlarının müəyyən edilməsi, ən başlıcası isə, onların torpaqla təmin edilməsi üçün əməli olaraq elə bir ciddi addım atılmamışdı.

Vəziyyəti ağırlaşdıran başqa bir cəhət isə yerlərdə, xüsusilə, idarəçilik sisteminin aşağı və orta pillələrində çalışan məmurların yerli şəraiti və regionun aqrar həyatının on illər ərzində formalaşmış strukturunu nəzərə almaması idi. Hökumət məmurlarının özbaşınalığı və rüşvətxorluğu halları yerli hakim zümrə nümayəndələrinə, xüsusilə, bəylərə və ağalara münasibətdə müəyyən ziddiyyətli məqamlar da yaradırdı.

Belə məqamlardan biri ali müsəlman silkinin nümayəndələrinin hüquq və imtiyazlarının müəyyən edilməsi zamanı yol verilmiş əyintilər və özbaşınalıqlar idi. Bunlar arasında diqqəti daha çox cəlb edən məsələlərdən biri general Yermolovun göstərişi ilə hələ 1822-ci ildə ali zümrəyə daxil olan şəxslərin (bəylər və ağalar) siyahılarının tərtib edilməsi, 1830-1831-ci illərdə və 1842-ci illərdə aparılmış kameral siyahılaşdırmalardan sonra müxtəlif vaxtlarda çox zaman əsil-nəcabəti tam bəlli olmayan və işğaldan sonra hakimiyyət orqanlarının müvafiq strukturları tərəfindən aparılmış, bəhs etdiyimiz siyahılarda adı çəkilməyən bir çox şəxslərin sonradan bu işlə məşğul olan dövlət məmurlarının "səxavəti", əslində isə rüşvətxorluğu nəticəsində öz familiyalarının belə siyahı və sənədlərə əlavə edilməsinə və bəy mənsubiyyətindən olmaları haqqında müxtəlif saxta sənədlər düzəldilməsinə nail ola bilmələri idi.

Bəzən, hətta iş o dərəcəyə çatırdı ki, yerlərdə yaranmış münaqişələr zamanı hökumət məmurları özləri belə əsil-nəcabətli bəyləri bu titulu qeyri-qanuni yollarla əldə etmiş şəxslərdən ayırmaqda çətinlik çəkirdilər. Əksər hallarda yerli hakimiyyət orqanları məmurlarının Qafqaz canişininin dəftərxanası, paytaxdakı Senat və digər ali idarəçilik orqanları ilə illərlə davam edən yazışmaları başlayır, bunlar çox vaxt isə vəziyyətə aydınlıq gətirmək əvəzinə onu bir az da mürəkkəbləşdirirdi.

Bu sahədəki mövcud qarışıq vəziyyəti aradan qaldırmaq, ali müsəlman silkinin hüquq və imtiyazlarının müəyyən edilməsi üçün müxtəlif vaxtlarda bəzi işlər görülmüşdü. Bu istiqamətdə ilk konkret addım hələ 1846-cı ildən sonra Tiflis və Şamaxıda iki bəy komissiyasının yaradılması olmuşdu (1, vər.7 ).

Mövcud qanunlara görə ali silkin üzvləri bütün vergi və mükəlləfiyyətlərdən azad olduğu üçün bəy titulu almaq cəhdlərinin artması səbəblərini başa düşmək o qədər də çətin deyildi. Eyni zamanda, 30-40-cı illərdə imperiya orqanlarının yerli hakim zümrənin simasında özünə sosial dayaq yaratmaq məqsədilə mülki və digər xidmət növləri əvəzinə həmin şəxslərə bəy və digər titullar bağışlaması da məsələ ətrafında vəziyyətin bir az da mürəkkəbləşməsinin digər səbəbi idi.

Əsrin 60-cı illərinin ikinci yarısında çarizmin 1861-ci il Kəndli islahatının yerlərdə də həyata keçirilməsinin zəruriliyini, nəhayət, qəbul etməsindən sonra indi milli ucqarlarda da konkret işlər görülməsi üçün hazırlıq işləri başlanırdı. Bu sahədə konkret işlərin əsas icraçısı olacaq Cənubi Qafqaz Mərkəzi İslahat Komitəsi ilk addım kimi yerlərdə bəy və ağaların mənsubiyyəti məsələsinin həllini iki konkret vəzifədən birincisi kimi irəli sürdü (4, vər.2). Çünki Cənubi Qafqazda sahibkar-kəndli münasibətlərinin hökumətin maraqlarına uyğun dərəcədə tam aydınlaş-

dırılmamış kəndli islahatının uğurla həyata keçiriləcəyinə rəsmi dairələrdə inam çox az idi. 1865-ci ildə Kənd cəmiyyətləri haqqında qanunun qəbul edilməsi məsələnin həlli istiqamətində müəyyən dəyişiklik etsə də, bu, hələ hər şey demək deyildi. Lakin həmişə olduğu kimi, yenə də, hakimiyyət orqanlarının astagəlliyi özünü göstərdi. Bir çox bəyanat və bildirişlərdən sonra, nəhayət, 1869-cu ildə ali zümrənin əsil-nəcabətinin müəyyən edilməsi, onun sıralarını bu adı qeyri-qanuni və saxta yollarla əldə etmiş şəxslərdən təmizləmək sahəsində hökumət tərəfindən ilk addımlar atıldı (2, vər.8). Təxminən iyirmi ilə yaxın fasilədən sonra Şuşa, Bakı, İrəvan və Tiflis şəhərlərində ali müsəlman silkinin nümayəndələrinin əsil-nəcabətinin müəyyən edilməsi üçün dörd bəy komissiyalarının yaradılması işinə başlandı.

Hökumət orqanları komissiyaların hər birinin fəaliyyəti üçün ayrıca tərtib etdiyi təlimatlarda komissiyanın say tərkibi, iş qaydaları, formalaşma yolları, komissiya sədrinin və üzvlərinin hər birinin ayrılıqda görəcəyi işlər və səlahiyyətləri, lazımi sənədlərin hazırlanma qaydası, protokolların tərtibi və hesabatları haqqında ətraflı məlumat verilirdi. Komissiyaların fəaliyyətləri üçün təlimatların ayrı-ayrılıqda təsdiq olunmasına baxmayaraq, əhatə edəcəyi quberniya qəzalarının adları istisna olmaq şərtilə, qalan hər şey, demək olar ki, eyni idi (5, vər.1-8).

Komissiyaların yaradılması işi hələ 1869-cu ildə başlasa da onların fəaliyyəti haqqında təlimatlar 1870-ci ilin yanvarında, yəni islahatın elan edilməsindən cəmi bir neçə ay əvvəl təsdiq edilmişdi (3, vər.7).

Bakı bəy komissiyasının fəaliyyəti üçün təsdiq edilmiş təlimatın birinci maddəsində (təlimat cəmi 44 maddədən ibarət idi) bildirilirdi ki, bu komissiya keçmiş Şirvan, Bakı, Quba və Talış xanlıqları ərazisi hesabına yaranmış Bakı Quberniyasının Şamaxı, Lənkəran, Cavad, Göyçay, Quba qəzalarının ali müsəlman silkinin üzvlərinin əsil-nəcabətini müəyyən etmək məqsədilə yaradılmışdır (3, vər.8).

Təlimatda belə bir müddəa xüsusi olaraq qeyd edilirdi ki, komissiya yalnız adları çəkilən keçmiş xanlıqların ərazisində hələ Rusiyaya birləşməyə qədər bəy, məlik, sultan, xan titullarından birinə malik olmuş ali zümrə üzvlərinin mənsubiyyəti məsələlərini araşdıracaq. Bu, onunla əlaqədar idi ki, Rusiyaya birləşmədən sonra hökumət məmurlarının "xeyir-duası" ilə bu titula rəsmi şəkildə sahib olmuş şəxslərin sayı o qədər artmışdı ki, artıq kimlərin nəslən və ya şəxsi bəy olmalarını düzgün müəyyən etmək, yaxud onları bəy titulunu saxta sənədlər düzəldilməsi və digər vasitələrlə əldə etmiş şəxslərdən fərqləndirmək əksər hallarda mümkün deyildi.

Təlimatda diqqəti cəlb edən hallardan biri də adı çəkilən xanlıqların ərazisindən hələ Rusiyaya birləşməyə qədər köçüb getmiş, lakin sonradan əvvəlki yaşayış yerinə qayıtmış şəxslərin və ailələrin varislərinin müraciətlərinə baxılmaması idi.

Bakı bəy komissiyası haqqında təlimatın 13-cü maddəsində bildirilirdi ki, yalnız 3 halda bəy nəslindən olan şəxslərin və ailələrin hüquqları və mənsubiyyət məsələsi heç bir araşdırma aparılmadan təsdiq olunurdu: 1) öz malikanələrinin sahibi olmalarının Qafqaz canişini tərəfindən təsdiqini bildirən sənədə malik olan şəxslər; 2) 1856-cı il 19 dekabr Əsasnaməsi ilə Şirvan və Quba əyalətlərində torpaqsız kəndlilərin şəxsi asılılıqdan azad edilməsi əvəzində bəy tituluna layiq görülmüş şəxslər (beləlləri sayca çox az idi); 3) keçmiş Şirvan və Quba əyalətləri bəylərin-

dən adları 1822-ci ildə general Yermolovun göstərişi ilə tərtib olunmuş siyahıda göstərilənlər (4, vər.12).

Qeyd etmək lazımdır ki, bəy və ağaların mənsubiyyətinin müəyyən edilməsi sahəsində işlərin başa çatması islahat ərəfəsində rəsmən elan edilsə də, gözlənildiyinin əksinə olaraq, komissiyaların fəaliyyətindən şikayətlərlə əlaqədar əlavə araşdırmalar, təhqiqat işləri islahatdan sonrakı onilliklərdə də davam edirdi. Hətta XX əsrin ilk illərinə aid arxiv sənədlərində bəy nəslindən və ya bu adı almağa iddia edən şəxslərin Senata, imperator dəftərxanasına, hətta şəxsən çara müraciətləri və bunların araşdırılması haqqında çoxlu materiallar var.

Komissiyaların fəaliyyətinin əsasında iddiaçıların təqdim etdiyi sənədlər dayansa da, çıxarılan qərarların məzmunu xeyli dərəcədə general Yermolovun siyahıları əsasında müəyyən olunurdu. Bu siyahılar Rusiya-İran müharibələrinin ikinci mərhələsi ərəfəsində, yəni vəziyyətin yenidən dəyişəcəyinə hakim zümrə üzvlərinin müəyyən hissəsinin ümidlərinin tam aradan qalxmadığı bir şəraitdə, müharibə ilə əlaqədar başqa yerlərə getmiş şəxslərin həlelik geri qayıtmadığı, bəzilərinin isə hökumət təqiblərinə məruz qaldığı bir vəziyyətdə tərtib edildiyi üçün bu və ya digər səbəblər üzündən yaranmış çətinliklərlə əlaqədar lazımi sənədlərin siyahılarını tərtib edən orqanlara vaxtında təqdim edilə bilməsi də sonradan əlavə çətinliklərin meydana çıxmasına səbəb olmuşdu. Sözsüz ki, 1822-ci il siyahısı bəy titulu almağa haqqı olan şəxslərin hamısını əhatə edə bilməzdi. Eyni zamanda, çar məmurlarının artıq ənənə halını almış laqeydliyi, süründürməçiliyi və rüşvətxorluğu da az rol oynamayaraq, əksər vaxt məsələnin, sözün əsl mənasında, düyünə düşməsinə gətirib çıxarırdı.

Bakı bəy komissiyası da digərləri kimi sədr, katib və yerli qəzalarda yaşayan ali zümrə üzvlərindən seçilən 24 şəxsdən ibarət olub, birbaşa Qafqaz canişininə tabe idi. Bakı bəy komissiyasının Şamaxı, Lənkəran, Bakı və Quba qəzalarında fəaliyyətə başlaması haqqında "Qafqaz" qəzetində bildiriş də dərc edilmişdi.

Komissiya tam tərkibdə bəy, xan ailə üzvlərinin, habelə onların varislərinin iddia sənədlərini nəzərdən keçirib ya təsdiq, ya da rədd edirdi. Əksər hallarda iddia sənədlərinin rədd olunma səbəbləri barədə iddiaçılara ətraflı izahat və ya məlumat verilmirdi. Komissiyaların fəaliyyəti dövründə çox ciddi prosedur qaydaları, onlarla arayışların tələb olunması, toplanmış sənədlərin müxtəlif instansiyalar vasitəsilə yoxlanması müəyyən hallarda illərlə vaxt aparırdı(3-vər.8).

İddiaçıların mənsubiyyəti məsələləri müəyyən edildikdən sonra komissiya protokollar əsasında aşağıdakı siyahıları tərtib edirdi: 1) irsi bəylər sırasına aid edilmişlərin siyahıları; 2) şəxsi bəylər sırasına daxil edilmiş şəxslərin siyahısı; 3) irsi və şəxsi bəylər sırasına daxil olunmaq haqqında iddiaları rədd olunmuş şəxslərin siyahıları (3, vər.10).

Hazır siyahılar və mənsubiyyəti təsdiq edilmiş şəxslərin hüquqlarını təsdiq edən şəhadətnamələr, bütün protokollar haqqında bəhs edilmiş üç siyahı ilə birlikdə Qafqaz canişininin müzakirəsinə və sərəncamına göndərilirdi. Yalnız bundan sonra komissiyalar öz işlərini başa çatdırmış hesab edilir, onların fəaliyyəti dayandırılır və bütün toplanmış sənədlər quberniya idarəsi arxivinə verilirdi (6, vər.7).

Beləliklə, komissiyalar hər bir siyahı üzrə reyestr tərtib edərək, siyahılarda haqqında bəhs edilən şəxslərin sıra nömrəsini müəyyən edir-

di. Komissiyaların fəaliyyətinin yekunu olaraq hazırlanmış bütün sənədlər komissiyanın sədri və heç bir istisnaya yol verilmədən, bütün komissiya üzvləri tərəfindən təsdiq edilirdi (3, vər.10).

Bəy komissiyalarının fəaliyyəti əslində ali zümrənin sıralarını buraya təsadüfi düşmüş və digər yollarla soxulmuş şəxslərdən təmizləmək, hökumətə düşmən münasibət bəsləyən şəxsləri bu tituldan məhrum etmək məqsədi güdürdü. Lakin iş elə gətirdi ki, nəslən və şəxsi bəylərin sıraları azalmaq əvəzinə, əksər yerlərdə xeyli artmış oldu. Bunu qubernatorların öz quberniyaları üzrə illik hesabat sənədlərində aydın şəkildə izləmək olur.

Bəy komissiyalarının yaradılması haqqında qərar ilk dəfə 1849-cu il 29 mayda Qafqaz canişini tərəfindən qəbul olunmuşdu. İlk vaxtlar bu komissiyaların Tiflis, Bakı, İrəvan və Şuşa şəhərlərində yaradılması və onların həmin şəhərlərin adları ilə adlandırılması nəzərdə tutulurdu. Elə həmin qərarda ali müsəlman silkinin bütün üzvlərinə məsələ barədə xəbərdarlıq edilməsi haqqında xüsusi göstəriş də verilmişdi. Bəy komissiiyaları kəndli islahatının həyata keçirilməsinə birinci olaraq başlanılan Gürcüstanda yaradılmış zadəgan yığıncaqları və qurultaylarının rolunu oynamalı idi. Qeyd edilməlidir ki, bəy və ağaların mənsubiyyətinin müəyyən edilməsi məsələsi vaxtilə 1847-ci ildə qəbul edilmiş 2 kəndli əsasnamələrində də nəzərdə tutulurdu. Hətta bu istiqamətdə ilk vaxtlar müəyyən işlər də görülmüşdü. Lakin həmin vaxt komissiyaların onsuz da ləng olan fəaliyyəti əsrin 60-cı illərinədək yalnız ali silkin üzvləri haqqında sənəd və materiallar toplamaqdan ibarət olmuş, toplanmış materiallar əsasında konkret qərarlar qəbul edilməsi, irsi və şəxsi bəylərin siyahılarının tərtib edilməsi məsələləri tam sonadək başa çatdırılmamışdı. Bu işin gedişi haqqında Qafqaz canişininin illik hesabatlarında da müəyyən məlumatlar verilirdi. Canişinin Cənubi Qafqazda islahatın həyata keçirilməsinə hazırlıq işlərinin başlıca mərkəzi və orqanı olan Mərkəzi İslahat Komitəsinin sədrinə 1865-ci ildə ünvanladığı məktubda bildirilirdi ki, bəylərin əsil-nəcabətinin müəyyən edilməsi sahəsində işlər hələ 1847-ci il Kəndli əsasnamələrindən sonra başlamış, lakin bu sahədə işlər yalnız indi başa çatmışdır(8-səh.241).

Rəsmi strukturlarda komissiyaların hər birinin fəaliyyəti üçün Canişin tərəfindən təsdiq edilmiş təlimatlar, demək olar, eyni vaxtda hazırlansa da, onlar öz işlərinə eyni vaxtda başlamadılar. İlk öncə Tiflis şəhərində bu quberniyanın 4 sahə və 2 qəzasının ağalarının və İrəvan şəhərində İrəvan quberniyası üzrə bəy ailələrindən olan şəxslərin iddia sənədlərini nəzərdən keçirən iki komissiya işə başladı. Digər iki komissiya öz işinə bir qədər gec, 1869-cu ildə Şuşa və Bakı şəhərlərində başlamışdı. Təbiidir ki, fəaliyyətə daha əvvəl başlamış iki komissiyanın işi digərlərindən tez başa çatmalı idi. Komissiyaların say tərkibi hamısında eyni olsa da (24 nəfər ), qəbul olunmuş qərarlarda komissiya sədri və katibinin səsləri həlledici sayılırdı. Belə etməklə hökumət əslində komissiya üzvlərinin müəyyən hallarda məsələyə subyektiv yanaşmalarının qarşısını almaq məqsədi güdürdü. Komissiyaların əksər üzvləri yerlərdə əsil-nəcabəti heç bir şübhə doğurmayan hakim zümrə nümayəndələri sırasından seçilirdi. Komissiyaların fəaliyyəti müxtəlif vaxtlarda başa çatdı və sonradan məlum oldu ki, ən çox iddia sənədləri daxil olmuş İrəvan, ən az isə Bakı, ən çox iddia sənədləri rədd edilmiş isə yenə də Bakı bəy komissiyası olmuşdur.

Belə hesab etmək olardı ki, komissiyaların öz işlərini başa çatdırması kəndli islahatına hazırlığın sona yetməsi demək idi. Doğrudan da, toplanmış materiallar və hazırlanmış sənədlər Cənubi Qafqazda kəndli islahatının keçirilməsinə ciddi təkan verdi və rəsmi dövlət strukturları islahatın elan edilməsinə qədərki hazırlıq işlərinin başa çatması haqqında yuxarı instansiyalara raportlar göndərməklə yanaşı, yerlərdə zəruri ehtiyat və təşkilati tədbirlərin həyata keçirilməsini də yaddan çıxarmamışdılar. Daxili işlər naziri quberniya rəislərinə məktublarında öz sahələrində bütün zəruri tədbirlərin görülüb başa çatdırılmasını xüsusi olaraq əmr etmişdi (7, vər.41).

Bəy komissiyalarının işlərinin yekunlaşması rəsmi şəkildə elan olunduqdan sonra belə yerlərdən daxil olan müxtəlif şikayət ərizələri və müraciətlərə baxılması ilə dövlət strukturları və quberniya idarələrinin məsələyə aid fəaliyyətə başlaması isə, əslində, bu sahədə işlərin davamı demək idi. İddia ərizələri və şikayətlərə baxılması əksər vaxtlar illərlə davam edir, yalnız bəzii hallarda iddiaların təmin edilməsilə nəticələnirdi. Belə iddialardan birinin uzunmüddətli müzakirəsindən sonra Senatın Qafqazın mülki rəisinə 1903-cü ildə göndərdiyi məktubda deyilirdi ki, Senat Naxçıvan şəhər sakini Hacı Məmmədbağır bəy Hacı İbrahim Xəlil bəy oğlu Qasımbəyovun xahiş ərizəsini müzakirə edərək onun iddiasını əsassız saymış və bəy komissiyasının 1869-cu il 20 fevral tarixli qərarını, habelə məsələ barədə Qafqaz Canişinin qətnaməsini öz qüvvəsində saxlayaraq, iddiaçının ərizəsini rədd etmişdir(4-vər.2).

Rəsmi hökumət orqanlarında çox az sayda təmin edilmiş iddia ərizələri isə ən çox özlərinin şəxsi bəy yox, nəslən bəy olmalarını sübut etməyə çalışan şəxslərin müraciətlərinə aid idi. Qafqazın mülkü rəisinin 1896-cı il 4 noyabr tarixli qərarında bildirilirdi ki, Bakı bəy komissiyası Gəncəli kənd sakini Cəlil bəy Lütvəlibəyovun onun şəxsi bəy ailələri siyahısından çıxarılaraq nəslən bəy olan şəxslərin siyahısına keçirilməsi haqqında iddia ərizəsini təmin etmiş və Bakı bəy komissiyasının bu barədə əvvəlki 1877-ci il 10 may tarixli qərarı isə ləğv olunmuşdur (1, vər.32).

Arxiv sənədləri arasında şəxsi və nəslən bəy olmalarının təsdiq edilməsi haqqında çox zaman rədd edilmiş iddia ərizələrinin müxtəlif instansiyalarda müzakirələri barədə çoxlu iclas protokolları mövcuddur. Onların hər biri tədqiqatlarda müstəmləkə hakimiyyət orqanlarının regiondakı siyasətinin əsl xarakterini açmağa bir daha kömək edir.

## QEYDLƏR


1. Azərbaycan Respublikası Mərkəzi Dövlət Tarix Arxivi (bundan sonra Azərbaycan Respublikası MDTA). f. 20, siy.1, iş 21.
2. Azərbaycan Respublikası MDTA. f. 20, siy.1, iş 42.
3. Azərbaycan Respublikası MDTA. f. 20, siy.1, iş 47.
4. Azərbaycan Respublikası MDTA. f. 20, siy.1, iş 50.
5. Azərbaycan Respublikası MDTA. f. 69, siy.1, iş 2.
6. Azərbaycan Respublikası MDTA. f. 55, siy.1, iş 42.
7. Azərbaycan Respublikası MDTA. f. 998, siy.1, iş 15.
8. Колониальная политика Российского царизма в Азербайджане в 20-60 гг. XIX века. Т.II, М.-Л.: 1937.

## ОБРАЗОВАНИЕ БЕКОВСКИХ КОМИССИЙ ПО ЗАКАВКАЗСКИМ ГУБЕРНИЯМ И ИХ РОЛЬ В ДЕЛЕ ПОДГОТОВКИ К КРЕСТЬЯНСКОЙ РЕФОРМЕ ОТ 14 МАЯ 1870 ГОДА

**Ф.Э.БАХШАЛИЕВ**

**РЕЗЮМЕ**

В этой статье анализируются некоторые аспекты аграрной политики Российского царизма в Северном Азербайджане во второй половине XIX века. По многочисленным архивным документам указан весь ход подготовки крестьянской реформы от 14 мая 1870 года. Основная часть статьи посвящена к вопросу организации 4-ой бековской комиссии. Каждая бековская комиссия в своей работе использовала различные правительственные документы и инструкции.

## THEIR ROLE IN EREATING BEY COMISSIONS IN SOUTH CAUCASUS AND PREPARING 14 MAY 1870 YEAR PEASANT REJORM

**F.E.BAKHSHALIYEV**

**SUMMARY**

The article tells about the agrarian policy that Russia carried on in North Azerbaijan in the second half of the XIX century. The establishment of 4 special commiftees by the government during the agrarian reform and theis finctioning and rules vere in detail analysed in this article. The article also tells about the instructions of functioning rules.